4 yaş qrupu üzrə oğlan və qızlar arasında fərdi, eyni zamanda komanda hesabında 1-ci, 2-ci və 3-cü yerlərin sahiblərinə Təhsil Nazirliyi tərəfindən kubok, diplom və qiymətli hədiyyələr təqdim olunub.

Komanda hesabında 1-ci yeri Sumqayıt şəhəri, 2-ci yeri Ucar rayonu, 3-cü yeri isə Mingəçevir şəhərinin komandaları tutub.

Qeyd edək ki, yarışın I mərhələsi “Şahmat” fənni tədris olunan pilot ümumtəhsil məktəbləri arasında keçirilib və rayon (şəhər) üzrə qalib şagirdlərdən ibarət yığma komandalar yaradılıb. Yarışlarda “Şahmat” fənni tədris olunan 494 pilot məktəbdən 3 min nəfərdən çox şagird iştirak edib. Final yarışında isə 400-ə yaxın şagird mübarizə aparıb.